# Onlar Vətən uğrunda vuruşublar



**Rzayev Rövşən Abdulla oğlu**

15 oktyabr 1969-cu ildə Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olub. 1986-cı ildə E.İsmayılov adına 253 nömrəli orta məktəbi bitirdikdən sonra Vladiqafqaz Ali Hərbi Komandirlər Məktəbinə daxil olub. 1991-ci ildə təhsilini başa vuraraq təyinatla Orta Asiya və Qazaxıstan üzrə daxili qoşunların tərkibində taqım komandiri kimi fəaliyyətə başlayıb.

Respublikamızın başını qara buludlar alanda vətənin çağırışına səs verərək Azərbaycana dönüb. 1992-ci ilin fevralında N saylı mühafizə alayının 6-cı bölüyünə komandir təyin edilib. Ağdam rayonunun Paprəvənd, Pircamal, Aranzəminli, Şelli, Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv edib. 1992-ci ilin iyun ayında Naxçıvanik kəndində gedən döyüşlərin birində ağır yaralanıb. Müalicədən sonra 1993-cü ilin mart ayında Ədliyyə Nazirliyinin N saylı hərbi hissəsinin qərargah rəisi vəzifəsinə təyin edilib. 1994-cü ilin iyun ayında isə vaxtilə xidmət etdiyi alayın 4-cü taborunda qərargah rəisi vəzifəsinə irəli çəkilib.

19 yanvar 1996-cı ildə N saylı mühafizə alayının 15-ci bölüyünə komandir təyin olunub. Bir müddətdən sonra Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin mühafizə alayında qərargah rəisi vəzifəsində çalışıb. Sonra Qobustan həbsxanasını mühafizə edən bölüyün komandiri olub.

8 yanvar 1999-cu ildə burada qiyama qalxan bir qrup məhbusun zərərsizləşdirilməsi zamanı həlak olub.

Ailəli idi. İki övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 1999-cu il tarixli 73 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Sahil qəsəbəsində dəfn edilib.



**Ramazanov Şamil Ağasəf oğlu**

19 yanvar 1976-cı ildə Ağsu rayonunun Rəhimli kəndində anadan olub. 1983-cü ildə doğma kənddə məktəbə gedib. 1993-cü ildə onuncu sinfi bitirib. Bir il təsərrüfatda çalışıb. 19 mart 1994-cü ildə Milli Ordu sıralarına çağırılıb. Bir neçə ay təlim keçdikdən sonra N saylı hərbi hissəyə göndərilib. Orduda cəmi bir il xidmət etməsinə baxmayaraq, peşəkar döyüşçü kimi yetişib. Atəşkəs elan olunsa da əsgərlər mütəmadi olaraq hərbi təlimlər keçir, döyüş hazırlıqlarını durmadan artırırdılar. Heç düşünmürdülər ki, onları qarşıda daha bir sınaq, daha bir qarşıdurma da gözləyir. Bu, 1995-ci ilin 13-17 mart hadisələri idi. Həmin günlərdə dövlət çevrilişinə cəhd göstərən silahlı dəstənin zərərsizləşdirilməsi üçün Milli Ordu dəstələrinin apardığı əməliyyatlarda iştirak edib. Güclü atışma zamanı ağır yaralanıb və aldığı bu yaradan da gözlərini əbədi yumub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Rəhimli kəndində dəfn edilib.

Ağsu rayonunun mərkəzindəki kinoteatr onun adını daşıyır.



**Rəfiyev Faiq Qəzənfər oğlu**

22 fevral 1955-ci ildə Füzuli rayonunun Saracıq kəndində dünyaya gəlib. 1972-ci ildə Qarakollu kənd orta məktəbini bitirib. 1973-1975-ci illərdə hərbi xidmətdə olub. Ordudan tərxis edildikdən sonra Arxangelsk vilayətinin Plisetsk rayonunda milis sistemində çalışıb. İşləyə-işləyə Sankt-Peterburq şəhərindəki Ali Hərbi Milis Məktəbinin qiyabi şöbəsində oxuyub. 1984-cü ildə təhsilini başa vurub.

1990-cı ildə Azərbaycana qayıdaraq DİN-ə müraciət edib və Xocavənd rayonuna sahə müvəkkili vəzifəsinə göndərilib. Qarabağda gedən döyüşlərdə iştirak edib. Axullu, Tuğ, Qaradağlı kəndlərində erməni işğalçılarına qarşı vuruşaraq şücaət göstərib. Erməni quldurlarının yuvasına çevrilmiş Koçbəy kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə ağır yaralanıb. 10 yanvar 1992-ci ildə aldığı yaradan gözlərini əbədi yumub.

Ailəli idi. İki qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 2 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Füzuli rayonu Saracıq kəndində dəfn edilib.

Lökbatan qəsəbəsindəki 166 nömrəli tam orta məktəb onun adını daşıyır.



**Rəhimov Cavanşir İzzət oğlu**

5 iyun 1973-cü ildə Qax rayonunun Qaşqaçay kəndində anadan olub. Suraxanı rayonundakı 104 nömrəli orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra təhsilini texniki-peşə məktəbində davam etdirib. İdmanın karate növü ilə də ciddi məşğul olub. Qısa müddətdə idman ustası normasını ödəyib.

1992-ci ilin aprel ayında hərbi xidmətə çağırılıb. Azərbaycan Hərbi Hava Qüvvələrində xidmət edib. Hərbi vertolyotun bort atıcısı peşəsinə yiyələnərək özünü mahir atıcı kimi göstərib. Sərrast atəşlə düşmənin xeyli canlı qüvvəsini məhv edib. 6 avqust 1992-ci ildə onların vertolyotu səmaya qalxaraq iki uçuşu müvəffəqiyyətlə yerinə yetirib. Mİ-24 vertolyotu yenidən səmaya qalxdıqda raket atəşinə məruz qalıb. Alova bürünərək yerə düşən vertolyotda həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Suraxanı rayonundakı 146 nömrəli tam orta məktəb onun adını daşıyır. Qaraçuxur qəsəbə parkında büstü qoyulub.



**Cəfərov Cəlil Əziz oğlu**

28 yanvar 1962-ci ildə Gürcüstan Respublikası Marneuli rayonunun Lejbəddin kəndində anadan olub. Ailəlikcə Sumqayıt şəhərinə köçüb. 1977-ci ildə Sumqayıt şəhər 10 nömrəli orta məktəbin səkkizinci sinfini bitirərək, C.Naxçıvanski adına Hərbi Liseyə qəbul edilib. 1980-ci ildə Vladiqafqaz Hərbi Raket-Zenit Komandirləri Məktəbinə daxil olub. Təhsilini Saratov vilayətinin Engels şəhərində tamamlayıb. Qazaxıstan hərbi hissələrində və Respublika Müdafiə Nazirliyinin Operativ İdarəsində baş zabit vəzifəsinə təyin edilib. Bir müddətdən sonra Dağlıq Qarabağa ezam olunub, döyüş bölgəsində hərbi hissədə xidmət edib. Döyüş bölgəsində erməni yaraqlılarına qarşı mərdliklə döyüşüb, düşmənə sarsıdıcı top zərbələri endirilməsinə başçılıq edib. Bunun nəticəsində bir neçə yaşayış məntəqəsi azad edilib, dinc sakinlərin təhlükəsiz yerlərə köçürülməsi təmin olunub.

15 may 1992-ci ildə Şuşa rayonunun Turşsu-Zarıslı istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına həlak olub.

Ailəli idi. İki övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Sumqayıt şəhərindəki 10 nömrəli tam orta məktəb onun adını daşıyır. Gürcüstan Respublikası Marneuli rayonunun Lejbəddin kəndində abidəsi ucaldılıb.



**Senyuşkin Sergey Aleksandroviç**

15 sentyabr 1957-ci ildə Samara vilayətinin Sızran şəhərində anadan olub. 1974-cü ildə 21 nömrəli Sızran şəhər orta məktəbini bitirərək oradakı Politexnik İnstitutuna daxil olub. 1975-ci ildə təhsilini Ali Hərbi Təyyarəçilər Məktəbində davam etdirib. 1979-cu ildə həmin məktəbin məzunu olaraq Belarus Hərbi Dairəsinə göndərilib. 1989-cu ildə Zaqafqaziya Hərbi Dairəsindəki hərbi hissələrdən birinə komandir müavini vəzifəsinə təyin edilib. Birinci dərəcəli təyyarəçi, paraşüt idmanı üzrə ustalığa namizəd olub.

1 fevral 1992-ci ildən başlayaraq xidmətini mayor rütbəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrində davam etdirib. Azərbaycanın Hərbi Hava Qüvvələrinin yaradılmasında yaxından iştirak edib. Təlim-məşq mərkəzində Mİ-24 döyüş vertolyotunun uçuşlarını həyata keçirmək üçün hərbi xidmətə gələn mülki təyyarəçiləri hazırlaşdırıb və onlarla döyüş əməliyyatlarında iştirak edib.

Xocalı faciəsi zamanı qoca, qadın və uşaqların təhlükəli zonadan çıxarılmasında böyük fədakarlıq göstərib. Son uçuşda yaralansa da borcunu layiqincə yerinə yetirib. 29 fevral 1992-ci ildə qəhrəmancasına həlak olub.

Ailəli idi. İki qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Samara vilayətinin Sızran şəhərində dəfn edilib. Bakının Xətai rayonunda adına küçə var.



**Seyidov Məhərrəm Mirəziz oğlu**

7 sentyabr 1952-ci ildə Şərur rayonunun Alışar kəndində anadan olub. 1969-cu ildə buradakı N.Nərimanov adına orta məktəbi bitirib. Hərbi xidmətini Xerson şəhərində başa vurduqdan sonra əmək fəaliyyətinə daxili işlər orqanlarında başlayıb. Bakı Xüsusi Orta Milis Məktəbini (indiki Polis Akademiyası) bitirib. Şərur Rayon Daxili İşlər Şöbəsi yanında mühafizə şöbəsində baş inspektor vəzifəsində çalışıb.

1990-cı il yanvarın 16-da düşmənin silahlı birləşmələri Sədərəyin Kərkı kəndinə hücum edərək evləri yandırıb, soydaşlarımızı öz doğma yurd-yuvalarını tərk etməyə məcbur edib. Onlar azğınlaşaraq, Sədərək rayonuna tərəf irəliləyiblər. Təhlükə barədə Şərur Rayon Daxili İşlər Şöbəsinə məlumat daxil olub. Bir qrup polis əməkdaşı hadisə yerinə göndərilib. Qrupda o da olub. Yanvarın 18-də Sədərəyə yaxın postlarda qanlı döyüşlər gedib. 1990-cı il yanvarın 19-da Sədərəyin müdafiəsi təmin olunsa da o, mühasirəyə düşüb. Döyüş yoldaşını mühasirədən çıxarıb, özü qəhrəmancasına həlak olub.

Ailəli idi. Dörd övladı var.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Şərur rayonunda Şəhidlər xiyabanında dəfn edilib.

Şərur şəhərində adına küçə var, tuncdan büstü qoyulub. Şərur şəhər 2 nömrəli tam orta məktəb onun adını daşıyır.



**Seryogin Viktor Vasilyeviç**

23 mart 1944-cü ildə Tbilisidə anadan olub. Orta təhsilini həmin şəhərdə alıb. 1986-cı ildə Kremençuq Mülki Aviasiya Məktəbini bitirdikdən sonra Zabrat Əlahiddə Aviasiya Dəstəsinə məxsus Mİ-2 vertolyotunun pilotu təyin edilib.

Azərbaycan torpaqları Ermənistan tərəfindən işğala məruz qalanda vertolyot heyəti tərkibində müharibə zonasına uçuşlar edib, əhalinin təhlükəli zonadan çıxarılmasında xüsusi fədakarlıq göstərib. Xidmətləri yüksək qiymətləndirilərək Mİ-2 vertolyotuna komandir təyin edilib. Ağdam, Şuşa, Ağdərə rayonları ərazisində aparılan döyüş əməliyyatlarının fəal iştirakçısı olub.

28 yanvar 1992-ci ildə Şuşa - Ağdam marşrutu ilə sərnişin aparıb. Bir neçə dəfə əhalini təhlükəsiz zonaya çatdıran Mİ-2 vertolyotu Şuşa yaxınlığında düşmən tərəfindən atəşə tutulub. Alova bürünmüş vertolyotu çətinliklə də olsa Şuşanın üzərindən kənara yönəldə bilib. Bununla da daha böyük itkinin qarşısını alıb, özü isə heyət üzvləri ilə birlikdə həlak olub.

Ailəli idi. İki qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.



**Sədiyev Vəzir İsa oğlu**

6 iyun 1961-ci ildə Gürcüstan Respublikası Marneuli rayonunun Aşağı Qullar kəndində anadan olub. İbtidai təhsilini doğma kəndində, orta məktəbi isə Qərbi Azərbaycanın Körpülü kəndində bitirib. Tbilisi Ali Hərbi Artilleriya Məktəbinə daxil olub. Təhsilini başa vurduqdan sonra Rusiyanın Qorki şəhərindəki hərbi məktəblərdən birində müəllim işləyib. Batalyon komandiri kimi Əfqanıstan müharibəsində 2 il 4 ay iştirak edib. Artilleriya və raket qoşunları tərkibində N saylı hərbi hissənin qərargah rəisinin müavini vəzifəsinə təyin edilib.

Dəhşətli Xocalı soyqırımı xəbərini eşitdikdən sonra Vətənə qayıdıb. Azərbaycanın Müdafiə Nazirliyinə müraciət edib. Nazirliyin əmri ilə Artilleriya və Hərbi Hava Qüvvələri İdarəsində döyüş hazırlığı şöbəsinin rəis müavini vəzifəsinə təyin edilib. Laçın, Qubadlı, Füzuli, Ağdərə rayonlarında gedən döyüşlərdə iştirak edib.

1993-cü il fevralın 19-da Ağdərənin Aterk kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

Ailəli idi. Bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.



**Seyidov Mirəsgər Mirabdulla oğlu**

6 fevral 1970-ci ildə Babək rayonunun Qaraxanbəyli kəndində anadan olub. 1987-ci ildə Naxçıvan şəhər 39 nömrəli orta məktəbi bitirdikdən sonra bir müddət doğma kəndlərində çalışıb. 1988-ci ildə Sovet Ordusu sıralarına çağırılıb. 1990-cı ildə hərbi xidmətini başa vuraraq Naxçıvana dönüb.

Erməni yaraqlıları Naxçıvanın kəndlərinə aramsız hücumlar edəndə Vətənin igid oğulları öz canları, qanları bahasına torpaqlarımızı yağı düşməndən qoruyublar. O da könüllü olaraq Babək rayonu Yuxarı Buzqov kənd özünümüdafiə batalyonunun tərkibində vuruşub. Kəndin müdafiəsində igidliyi və cəsurluğu ilə fərqlənib. Son döyüşü 1992-ci il iyun ayının 14-də olub. Döyüş zamanı yoldaşlarını xilas edərkən ağır yaralanıb və şəhidlik zirvəsinə yüksəlib.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1992-ci il tarixli 367 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Naxçıvan şəhərində Şəhidlər xiyabanında dəfn olunub.

Oxuduğu Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbinə onun adı verilib.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*